**Fidan Elçin qızı Əhmədzadə** [97]

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİTQ BACARIQLARINI İNKİŞAF ETDİRƏN YARADICI TAPŞIRIQLAR

**Giriş.** Təhsil prosesində şagirdlərin nitq bacarıqlarının formalaşdırılması həm fərdi, həm də cəmiyyətin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Öz fikirlərini məntiqli və doğru ifadə edən şagirdlərdə özünəinam hissi güclənmiş olur. Xüsusilə, ümumi orta və tam orta təhsil səviyyəsində bu bacarıqların düzgün formalaşdırılması şagirdlərin dil imkanlarından səmərəli istifadə etməsinə və uğurlu əlaqələr qurmasına kömək edir. Nitq yalnız sözlərdən və dildən düzgün istifadə edilməsindən ibarət deyil, o, həm də məntiq və düşüncənin ifadəsi, məlumatın anlaşıqlı və təsirli şəkildə ifadə olunmasıdır. Bu xüsusiyyətlər insanların sosial münasibətlərində, peşə fəaliyyətində və təhsil prosesində mühüm rol oynayır. Bu baxımdan nitq bacarıqlarının inkişaf etdirilməsi təhsil müəssisələrində xüsusi diqqət tələb etməklə təlim-tərbiyə prosesinin vacib istiqamətlərindən biri kimi dəyərləndirilir.

**Əsas hissə.** Son illərdə təhsildə yaradıcı yanaşmaların önəmi artmışdır. Ədəbiyyat dərslərində şagirdlərin dil bacarıqlarının inkişafında yaradıcı tapşırıqların tətbiqi xüsusi yer tutur. Yaradıcı tapşırıqlar şagirdlərin sərbəst şəkildə düşünməsini, yeni fikirlər irəli sürməsini, təhlil etməsini, eyni zamanda öz mövqeyini inandırıcı şəkildə müdafiə etməsini təşviq edir. Bu tapşırıqlar şagirdlərin yalnız mövcud bilikləri deyil, həm də yaradıcı düşünmə və ifadə bacarıqlarını inkişaf etdirir, onların təxəyyüllərini zənginləşdirir və ədəbiyyat dərslərinə olan maraqlarını artırır.

Məlum məsələdir ki, ədəbiyyatın üç əsas məzmun xətti var: ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq, yazılı nitq [1, s.9]. Hər bir məzmun xətti fərqli istiqamətlərdə şagirdlərin nitq bacarıqlarını zənginləşdirir. "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xətti şagirdlərə həyatın müxtəlif aspektlərini anlamağa kömək edir və onlara düşüncələrini aydın ifadə etməyi öyrədir. "Şifahi nitq" məzmun xəttində şagirdlər bədii əsərləri müzakirə edərək dil bacarıqlarını inkişaf etdirir. "Yazılı nitq" məzmun xəttinin isə əsas vəzifəsi şagirdlərdə yazı bacarıqlarının inkişafıdır. Ədəbi əsərlər üzərində aparılan yazılı təhlillər nəticəsində analitik düşünmə bacarığı da inkişaf etmiş olur.

Müəllimlər ədəbiyyat dərslərində sadəcə ədəbi əsərlərin öyrədilməsi ilə məhdudlaşmamalıdır. Bu dərslər şagirdlərin dil bacarıqlarını inkişaf etdirən, onlara dilin incəliklərini öyrədən, düşüncə tərzlərini formalaşdıran bir mühit olmalıdır. Müəllimlər bu məqsədə çatmaq üçün müxtəlif üsullardan istifadə edirlər: müzakirələr və diskussiyalar, inşa, esse, tapşırıqlara yazılı cavabların hazırlanması və s. Lakin bu cür metodlar şagirdlərin hər zaman diqqətini cəlb etməyə bilər. Bu səbəbdən interaktiv və yaradıcı tapşırıqlardan istifadə məqsədəuyğundur. Yaradıcı tapşırıqlardan istifadə şagirdlərin dünyanı daha geniş şəkildə qavramalarına kömək edir.

Ədəbiyyat dərslərində istifadə oluna biləcək yaradıcı üsulları aşağıdakı kimi təsnif edə bilərik:

- Yaradıcı nağıletmə;
- Dialoqların III şəxsin dilindən verilməsi;
- Mənfi obrazın müdafiəsi;
- Yeni personajın əlavə olunması;
- Ssenari yazmaq;
- Hadisələrin müasir dövrə uyğunlaşdırılması;
- Obrazlarla müsahibə;
- Müəllifə və ya əsərin qəhrəmanına məktub yazılması;
- MİNN.

Yaradıcı nağılemə ədəbiyyat dərslərində şagirdlərin nitq vərdişlərini formalaşdırmaq və təxəyyüllərini stimullaşdırmaq üçün səmərəli üsullardan biridir. Şagirdlər mətnin məzmununu dəyişdirərək onu dinləyicilərə öz sözləri ilə ifadə edərək çatdırırlar. Onlar mövzuya fərqli baxış bucağından yanaşaraq öz dünyalarını ədəbiyyat vasitəsilə paylaşırlar. Görkəmli metodistlərdən Bilal Həsənli qeyd etmişdir ki, bu zaman şagirdlər əsərin "ikinci müəllifinə" çevrilirlər [7, s.293]. Məsələn, şagirdlərə M.Müşfiqin "Təbiət varlıdır, təbiət xəsis, İşlədərkən onu sən ey mühəndis" misralarındakı "təbiəti" genişləndirib öz sözləri ilə təsvir etmək tapşırılır.(Ədəbiyyat, IX sinif) Bu zaman şagirdlər təbiətin hər bir tərəfinin zənginliklərlə dolu olduğunu, amma onun hər zaman öz varlığını nümayiş etdirməməsi, gizləməsi və mühəndis, yəni insanın bu gözəllikləri işlədərək üzə çıxarmasından söhbət açır. Təbiət o qədər zəngindir ki, hər bir quş, hər bir çiçək, hər bir dağ təbiətə bir hiss bəxş edir və müəllif həmin hisslərin necə dərin olduğunu ifadə edir.

Ədəbiyyat dərslərində obrazların dialoqlarının III şəxsin dilindən verilməsi şagirdlərin nitq mədəniyyətinin inkişafına yönəlmiş yaradıcı tapşırıq növlərindən biridir. Bu üsul sayəsində onlar sadəcə mətnin məzmununu qavramaqla kifayətlənmirlər, eyni zamanda onu fərqli ifadə vasitələri ilə yenidən qururlar. Bu cür yanaşma şagirdlərin söz ehtiyatını artırır, cümlə quruluşlarına və zaman formalarına olan diqqətini artırır, məntiqi düşüncə bacarıqlarını zənginləşdirir. Məsələn,Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim, şair M.F.Axundovun "Hekayəti-müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyasında Hatəmxan ağa və Şahbaz bəyin dialoqunun III şəxsin dilindən verilməsi uyğun nümunə hesab edilə bilər. (Ədəbiyyat, X sinif)

Biz adətən mənfi obrazları pis əməllərinə görə mühakimə edirik, lakin onların xoşagəlməz davranışlarının səbəblərini araşdırmırıq. Mənfi obrazın müfadiəsi tapşırığında şagirdlər obrazın daxili dünyasına nüfuz edir və onun davranışlarının səbini araşdıraraq onu haqlı çıxara biləcək məqamları üzə çıxarırlar. Bu zaman onlarda yaradıcı,

[97] *SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı.* ehmedzadefidan9@gmail.com

tənqidi, empatiya, dəlil gətirmə, nəticə çıxarma bacarıqları formalaşır və şagirdlər hadisələrə bir mövqedən deyil, kompleks şəkildə dəyərləndirməyə yönəlmiş olur. Sinif mühitində bu tapşırığın debat, məhkəmə prosesi, rollu oyun, qrup müzakirələri, esse və s. formada icrası mümkündür. Məsələn, Kitabi-Dədə Qorqud dastanından "Basatın Təpəgözü öldürdüyü boyda" mistik obraz olanTəpəgözün müdafiəsini etmək maraqlı ola bilər. (Ədəbiyyat, VI sinif) Məhkəmə prosesinin gedişatını bu cür qurmaq mümkündür:

- Sinifdə bir məhkəmə qurulur.
- Şagirdlərdən biri hakim, biri Təpəgöz, digərləri şahidlər və vəkillər olur.
- Şahidlər Təpəgözün əməllərindən danışarkən, vəkillər Təpəgözün günahsız olduğunu sübut etməyə çalışırlar.
- Sonda isə ümumi qərar verilir: Təpəgöz həqiqətən günahkardırmı? Onun cəmiyyətdən təcrid olunması qəddarlığını artırmış ola bilərmi?

Digər bir formada isə sinif iki qrupa bölünə bilər:qruplardan biri Təpəgözü müdafiə edir, digər qrup isə mənfi xarakter olduğunu sübut etməyə çalışır.

Ədəbiyyat dərslərində şagirdlərin nitq inkişafını təşviq edən yaradıcı və təsirli üsullardan biri də yeni personajın əlavə olunmasıdır. Bu üsul yalnız təxəyyülü inkişaf etdirmir, eyni zamanda şagirdlərin əsərə daha dərindən nüfuz etməsinə, obrazların daxili aləmini dərk etməsinə və məntiqi əlaqələr qurmasına kömək edir. Bu zaman şagirdlər mətnə fərqli prizmadan yanaşır. Əsərə əlavə olunan yeni obraz müsbət və ya mənfi ola bilər. Onlar bu obrazın fiziki xüsusiyyətlərini, psixoloji portretini, məqsədlərini təsvir etməklə yaradıcı yanaşmalarını inkişaf etdirirlər. Əgər yeni personaj mövcud süjetin axışına təsir edəcəksə, bu daha mürəkkəb düşünmə prosesini işə salır. Şagirdlər bu obrazın əsərin ideyasına necə uyğun gəldiyini, onun digər obrazlarla münasibətini, hadisələrə təsirini araşdırmalı və süjetdə həmin obrazın məntiqi yerini müəyyənləşdirməlidirlər.Bundan əlavə bu personajın dialoqlarını, dünyaya baxışını ifadə edən nitq elementləri də düşünüldüyü üçün şagirdlərin söz ehtiyatı genişlənir, cümlə quruluşları daha rəngarəng olur. Məsələn, görkəmli ədəbiyyatşünas, nasir, yazıçı, pedaqoq İ.Şıxlının "Dəli Kür" romanında Cahandar ağanın qardaşı obrazı. (Ədəbiyyat, XI sinif)

Digər yaradıcı tapşırıq nümunələrindən biri də ssenari yazmaqdır. Ssenari yazmaq şagirdlərdən hadisələrin məntiqi sırasını düşünməyi tələb edir. Hər bir səhnə öz yerində olmalı, obrazların dialoqları və hərəkətləri məntiqli şəkildə inkişaf etməlidir. Həmçinin bu tapşırıq şagirdlərə müxtəlf situasiyaları və xarakterləri təsəvvür etmək imkanı təqdim edir. Ssenari yazarkən şagirdlər yazı formatına da diqqət edirlər. Beləliklə, strateji düşünmə, təhlil etmə, struktur formalaşdırma, yaradıcı düşüncə bacarıqları gücləndirilmiş olur. Müəllimlər bu tapşırığın icrası zamanı bir sıra məqamlara diqqət yetirməlidirlər:

- Şagirdlərin yaş səviyyəsinə uyğun mövzular verilməlidir;
- Metodun ilk dəfə tətbiqi zamanı həcm və obrazların sayı az olmalıdır;
- Tapşırığın icrasına keçməzdən əvvəl şagirdlərə hansı məqamlara diqqət etmələri barədə aydın izah verilməlidir;
- Ssenari yazmaq asan proses olmadığından kifayət qədər zamanın verilməsi mütləqdir;
- Sonda hər şagirdə ayrıca rəy və inkişafını təmin edəcək tövsiyələr verilməlidir.

Məsələn, "Hər gün yeni bir başlanğıc" mövzusunda ssenari yazmaq maraqlı ola bilər.

Hadisələrin müasir dövrə uyğunlaşdırılması ədəbiyyat dərslərində istifadə olunan maraqlı tapşırıqlardandır və şagirdlərin təfəkkürünü genişləndirmək, onların analitik düşünmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bu tapşırıq klassik və ya tarixi əsərləri müasir dövrün şəraitinə uyğunlaşdırmağa əsaslanır. Məsələn, bir əsərin obrazlarını, hadisələrini müasir dövrün sosial problemləri, texnoloji inkişafı və siyasi mühiti ilə əlaqələndirərək şagirdlərin bədii təfəkkürünü zənginləşdirmək mümkündür. M.Füzulinin "Leyli və Məcnun" poemasını müasir dövrə uyğunlaşdırmaq uğurlu seçim ola bilər. Müasir dövrdə bəzən sevgi münasibətləri sosial media və müxtəlif onlayn platformalar üzərindən başlayır. Məcnun internet üzərindən Leyli ilə tanış olur və bir müddət onunla yalnız onlayn ünsiyyət qurur. M.Füzulinin əsərində ailələr və cəmiyyət Leyli və Məcnunun bir araya gəlməsinin qarşısını alır. Müasir dövrdə də bu müxtəlif cür müşahidə olunur. Leylinin ailəsi onun sosial statusuna və təhsilinə görə Məcnunu qəbul etmir. Müasir dövrün təzyiqləri artıq daha çox fərqli mədəniyyətlərdən, dinlərdən, sosial statuslarından və həyat tərzlərindən irəli gəlir. Bu cür əlaqələndirməklə M.Füzulinin "Leyli və Məcnun" poeması müasir dövrün tələbləri və problemləri ilə uyğunlaşdırıla bilər. (Ədəbiyyat, X sinif)

Şagirdlərin nitq inkişafına xidmət edən yaradıcı tapşırıqlardan bir digəri bədii əsərin qəhrəmanı ilə müsahibənin aparılmasıdır. Fəxrəddin Yusifov "Ədəbiyyatın tədrisi metodikası" kitabında yeni və yaradıcı metodlar sırasında müsahibə əsasında oçerkdən bəhs etmişdir. Bu üsulda şagirdlər bir əşya və hadisənin müşahidəsindən sonra suallar tərtib edərək onu yoldaşları ilə paylaşır və nəticədə şagirdlərin mühakimə yürütmək, rabitəli nitq vərdişləri inkişaf edir [8, s.163]. Biz isə yaradıcı tapşırıq olaraq müsahibəyə fərqli prizmadan yanaşmışıq. Bu yanaşma obrazların daxili dünyasına nüfuz etməyə və onların qərarlarını analiz etməyə imkan yaradır. Şagirdlər obrazın keçmişi, gələcək taleyi və hazırki mövqeyi ilə bağlı suallar hazırlayaraq əsərin süjet xəttini daha dərindən təhlil etməyə başlayırlar. Bu tapşırıq şagirdlərə fərqli baxış bucağı formalaşdırmaq imkanı da vermiş olur. Şagirdlərdən biri obraz rolunda çıxış edir. Müəllim və digər sinif yoldaşları jurnalist rolunda çıxış edərək obrazdan müsahibə alırlar. Verilən suallar konkret və məntiqli olmalıdır. Müsahibə zamanı şagirdlər bədii qəhrəmanın danışıq tərzini mənimsəyir, onların nitq üslubunu özlərinə uyğunlaşdırırlar. Həmçinin şagirdlər obrazın psixoloji vəziyyətini, xarakter xüsusiyyətlərini təhlil edərək nitq vərdişlərini təkmilləşdirmiş olurlar.Yaxşı olardı ki, müsahibə sualları əvvəlcədən hazırlansın və obrazın roluna girən şagird suallarla məhz müsahibə prosesində tanış olsun. Bu zaman şagirddə spontan danışıq bacarığı da

inkişaf etmiş olar. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanının mistik obrazı olan Təpəgözlə müsahibənin aparılması uğurlu seçim ola bilər. (Ədəbiyyat, VI sinif) Jurnalist rolunda çıxış edən şagirdlər ona belə bir sual ünvanlaya bilərlər: “Sizi həmişə qəddar və insanlara qarşı amansız biri kimi tanıyırıq. Bəlkə də, bu sizin günahınız deyildi. Özünüzü necə hiss edirsiniz?”

Bədii əsərin dərinliyinə varmaq və oxucunun müəllif və ya obrazlarla daxili dialoq qurmasını təmin etmək üçün məktub yazmaq tapşırığı olduqca effektiv üsuldur. Müəllifə yazılan məktub şagirdlərin onun yaradıcılığına, üslubuna və ideyalarına verdiyi reaksiyanı əks etdirir. Bu zaman şagird müəllifə əsərlə bağlı təəssüratlarını, düşüncələrini və əsərin onda buraxdığı təsiri qeyd edir.Obraza yazılan məktub isə şagirdlərə əsərdəki situasiyalara şəxsi münasibət bildirməyə və öz baxışlarını obrazla bölüşməyə imkan verir. Məktub yazarkən şagirdlər qəhrəmanları müəyyən bir vəziyyətdə təhlil edərək onların hərəkətlərinə və qərarlarına münasibət bildirirlər. N.Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsində Rüstəm bəyə məktubun yazılması maraqlı ola bilər. Bu zaman şagirdlər Rüstəm bəyin hərəkətlərinin arxasında hansı səbəblərin dayandığını anlamağa çalışacaqlar. (Ədəbiyyat, X sinif)

Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının baş müəllimi Təhminə Əsgərova yaradıcı tapşırıqlar sırasında MİNN-in özünəməxsus yeri olduğunu vurğulamışdır. *“Cənubi Afrikalı professor Devid Makkoyd-Meyson tərəfindən yaradılmış MİNN (Mövqe, İzah, Nümunə, Nəticə) şagirdlərin məntiqi və yaradıcı təfəkkürünü, mühakimə qabiliyyətini üzə çıxarmaq imkanı verən mükəmməl interaktiv üsuldur”*[6, s.122].T.Əsgərova bildirmişdir ki, MİNN qısa zamanda ərsəyə gələn essenin sxemidir. Bu üsulla müəllim qısa zaman ərzində şagirdin mövzunu hansı səviyyədə qavramasını öyrənmiş olur və şagirdin mühakimə qabiliyyəti də inkişaf edir. I cümlədə şagird hadisəyə öz mövqeyini bildirir. II cümlədə mövqeyinin səbəbini izah edir. III cümlədə mövqeyinin düzgünlüyünü faktlarla əsaslandırır. Sonuncu cümlədə isə fikirlərini ümumiləşdirərək nəticəyə gəlir.

**Nəticə.** Göründüyü kimi, ədəbiyyat dərslərində yaradıcı tapşırıqlardan istifadə yalnız şagirdlərin dil bacarıqlarının inkişafına deyil, həm də onların özünü ifadə etmə qabiliyyətlərinin güclənməsinə şərait yaradır. Gələcəkdə bu cür tapşırıqların daha sistemli şəkildə tətbiqi bədii ədəbiyyat materiallarının tədrisinin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin ümumi inkişafına da müsbət təsir göstərə bilər.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının ümumi təhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) V-XI siniflər, Bakı: 2013, -93 s.
2. Ədəbiyyat (dərslik), 6-cı sinif, Bakı: Təhsil nəşriyyat- Poliqrafiya, 2021, – 240 s.
3. Ədəbiyyat (dərslik), 9-cu sinif, Bakı: Bakı, 2024, – 224 s.
4. Ədəbiyyat (dərslik), 10-cu sinif, Bakı: Bakı, 2022, – 208 s.
5. Ədəbiyyat (dərslik), 11-ci sinif, Bakı: Bakı, 2023, – 208 s.
6. Əsgərova T. Ədəbiyyat dərslərində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsi metodları // Azərbaycan məktəbi (elmi nəzəri pedaqoji jurnal), №2, 2022, s. 117-123.
7. Həsənli B. A. Ədəbiyyatın tədrisi metodikası. - Bakı: Müəllim, - 2016,- 455 s.
8. Yusifov F. A. Ədəbiyyatın tədrisi metodikası. - Bakı-2023, -414 s.



**Açar sözlər:** nitq inkişafi strategiyaları, yaradıcı tapşırıqların təhsildə rolu, şifahi və yazılı nitq, yaradıcı təfəkkür, ədəbiyyatın tədrisi metodikası

**Key words:**speech development strategies, the role of creative tasks in education, oral and written speech, creative thinking, methodology of teaching literature

**Ключевые слова:** стратегии развития речи, роль творческих задач в образовании, устная и письменная речь, творческое мышление, методика преподавания литературы


**Creative tasks that develop speech skills in literature lessons**

**Summary**


This study explores how creative assignments applied in literature lessons affect the development of students' speech skills. The aim is to show how these tasks not only teach students the fundamentals of language and speech culture but also enhance their critical, logical, and creative thinking and expression skills. Creative assignments encourage students to engage deeply with literary works, analyze them innovatively and reflectively in a modern context. These activities go beyond just teaching language knowledge; they also improve students' practical communication skills, developing their ability to solve problems and express their ideas clearly.


**Творческие задания, развивающие речевые навыки на уроках литературы**

**Резюме**


В этом исследовании рассматривается влияние творческих заданий, применяемых на уроках литературы, на развитие речевых навыков учащихся. Цель состоит в том, чтобы показать, как эти задания не только обучают основам языка и речевой культуры, но и развивают критическое, логическое и творческое мышление, а также навыки самовыражения. Творческие задания побуждают учащихся устанавливать глубокую связь с литературными произведениями, анализировать их в современном контексте инновационным и рефлексивным образом. Такие виды деятельности не ограничиваются только изучением языковых норм, но и способствуют развитию практических коммуникативных навыков, помогая учащимся решать проблемы и ясно выражать свои мысли.



**RƏYÇİ: filologiya elmləri doktoru, dosent, Əzizağa Nəcəfov**